*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 278-282* *ISSN: 2663-4406*

**UOT:** 070(091) Rauf Sadıxov*

# HACI İBRAHİM QASIMOV VƏ "HƏQİQƏTİ-ƏFKAR" QƏZETİ

***Xülasə***

1911-ci il noyabrın 1-dən 1912-ci il fevralın 25-nə kimi Bakıda "Həqiqəti-əfkar" qəzeti nəşr olunmuşdur ki, onun səhifələrində H.İ.Qasımovun məqalə və resenziyaları da yer almışdır. Bunlarda "Nəşri-maarif" cəmiyyətinin kəndlərlə əlaqəsinə toxunulmuş, İtaliya ilə Türkiyə arasında müharibəyə münasibətini bildirmiş, yaşadığı dövrdə islam dininin bərbad vəziyyətdə olduğu yazılmış, Azərbaycan oğullarını vətəni qorumağa çağırmışdır. H.İ.Qasımov həmin qəzetdə iki tamaşaya dair resenziya ilə də çıxış etmişdir ki, onlar da məqalədə imkan daxilində təhlil olunmuşdur.

**Açar sözlər:** H.İ.Qasımov, publisistika, teatr tənqidi, qəzet

## HAJI IBRAHIM GASIMOV AND THE NEWSPAPER "HAGIGAT-I AFKAR"

***Summary***

The newspaper "Hagigat-i Afkar" was published in Baku from December 1, 1911 to February 25, 1912, which contained the articles and references by H.Gasimov in its pages. In these articles, it was mentioned relations of the Society "Nashr-i Maarif" with villages, expressed attitude towards the war between Italy and Turkey, written that Islam was in bad condition in his lifetime, the sons of Azerbaijan had been called up for defending their homeland. H. Gasimov also published reviews on two plays in the same newspaper, which were also analyzed in the article among the possibilities.

**Key words:** H.I.Gasimov, publicity, theatre criticism, newspaper

## ГАДЖИ ИБРАГИМ ГАСЫМОВ И ГАЗЕТА «ХАГИГАТ-И АФКАР»

***Резюме***

Газета «Хагигат-и Афкар» была опубликована с 1 декабря 1911 по 25 февраля 1912 года в Баку. На её страницах были размещены статьи и рецензии Г.И.Гасымова. В этих статьях были отражены контакты между Обществом «Нашр-и Маариф» и сельскими местностями, было выражено отношение к войне между Италией и Турцией, написано о плохом состоянии ислама при жизни публициста, призыв сыновей Азербайджана на защиту своей родины. Г.И.Гасымов опубликовал в той же газете рецензии по двум пьесам, которые также были проанализированы в статье в рамках возможностей.

**Ключевые слова:** Гаджи Ибрагим Гасымов, публицистика, театральная критика, газета

**Giriş.** Elmi ictimaiyyəti XX əsrin ilk iki onilliyində məhsuldar fəaliyyət göstərmiş Hacı İbrahim Qasımovun "Həqiqəti-əfkar" qəzetindəki fəaliyyəti ilə tanış etməkdir.

1911-ci il noyabrın 1-dən 1912-ci il fevralın 25-nə kimi Bakıda Mirzə Cəlal Yusifzadənin redaktorluğu ilə "Həqiqəti-əfkar" qəzeti nəşr edilmişdir.

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru.

Mirzə Cəlal Yusifzadə haqqında ilk məlumatı Mirmöhsün Nəvvab vermişdir [1].

Filologiya üzrə elmlər doktoru, professor Asif Rüstəmlinin qeyd etdiyi kimi Mirzə Cəlal Yusifzadənin ədəbi və ictimai fəaliyyəti, mətbuat sahəsindəki xidmətləri, bədii-publisist yaradıcılığı ayrıca tədqiqata möhtacdır. O, bir çox mətbuat orqanlarında müxtəlif gizli imzalarla çıxış etmişdir [2].

Mirzə Cəlal Yusifzadə 1910-cu illdə Şərq musiqi müəllimi Saşa Oğanazaşvili ilə birlikdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının motivləri əsasında "Fərhad və Şirin" operasını yazmışdır [3].

Yuxarıda qeyd etdiyimiz kimi, Mirzə Cəlal Yusifzadə 1911-1912-ci illərdə Bakıda "Həqiqəti-əfkar" qəzetini nəşr etdirir. Qəzetdə bir çox müəlliflərlə yanaşı, XX əsrin əvvəllərində Azərbaycan mətbuatının tanınmış xadimlərindən və ilk teatr tənqidçilərimizdən olan Hacı İbrahim Qasımov (1886-1936) da iştirak edirdi

H.İ.Qasımov "Həqiqəti-əfkar" qəzetində demək olar ki, ilk nömrələrindən çıxış etmiş, həmin qəzetdə ilk məqaləsi "Nəşri-maarif və kəndçilər" [4] olmuşdur.

Məqalədə göstərilir ki, Bakıda "Nəşri-maarif" cəmiyyətinin iclaslarının birində Bakının kəndlərində müsəlmanlara məxsus məccani məktəblərin açılmasına qərar verilmişdir ki, onların bütün xərcini cəmiyyət öz öhdəsinə götürmüşdür.

H.İ.Qasımov cəmiyyətin bu fəaliyyətinin "şayan təhsin" hesab edir. Çünki şəhərdə rus-müsəlman məktəbləri fəaliyyət göstərdikləri halda, kəndlərdə ancaq bir-iki yerdə məktəb fəaliyyət göstərirdi. Məqalə müəllifi qeyd edir ki, kəndçilərimiz cəhalətə qərq olmuş, bir-birini qırmaqda, bir-birinin evini yıxmaqdadırlar. İldə yüzlərlə, minlərlə əhali bu kəndlərdə qırılır ki, bunun da səbəbini müəllif onların cəhalətində görür. O, fikrini isbat etmək üçün yaxın vaxtlarda Sabunçuda baş vermiş bir faciəni nümunə göstərərək qeyd edir ki, kənd əhalisi iki yerə parçalanıb.

Məqalənin axırında H.İ.Qasımov "Nəşri-maarif" cəmiyyəti tərəfindən gələcəkdə kəndlərə məxsus əkinçilik və bağçılıq məktəblərinin təsis edilməsini də arzu edir.

1910-1911-ci illərdə İtaliya ilə Türkiyə arasında Trablis üstündə müharibə başlanmışdır ki, bu müharibə haqqında dəqiq məlumatın olmaması H.İ.Qasımovu narahat etmiş və o, bu haqda "Həqiqəti-əfkar" qəzetində "Müharibəyə dair" məqaləsi ilə çıxış etmiş [5] və məsələyə münasibətini bildirmişdir.

H.İ.Qasımovun "Həqiqəti-əfkar" qəzetinin səhifələrində dərc etdirdiyi yazılar içərisində "Zavallı madər" [6] başlıqlı bədii-publisist yazısı da özünə yer almışdır. Müəllif bu yazını bədii şəkildə təbiətin təsviri ilə başlayır: "Payız günlərinin biri idi. Həvada gahi yağış, gahi qar əlamətləri görünürdü. Evimin qabağında olan pəncərələrdən dışarıya seyr və tamaşa eləyirdim." Lakin bu ürəkaçan mənzərələr içərisində müəllifi həddindən artıq kədərləndirən ayaqyalın, başıaçıq bir uşağın dilənməsi idi. Bu mənzərə müəllifin kədərini daha da artırırdı. Belə xəyal aləminə qərq olmuş müəllifi yuxu aparır və o, yuxuda gördüyü röyanı oxuculara çatdırır. Müəllif röyada vüsətli bir salonun baş tərəfində bir taxt qurulduğunu və onun üstündə 25 yaşlarında cavan bir qadının oturduğunu yazır. Müəllif həmin qadını belə təsvir edir: "Xanımın zülfləri pərişan, didələri giryan, başını taxtın yanına söykəyib həsrət ilə divarda asılmış olan bir şəklə baxırdı. Bu şəklə baxdıqca gözlərinin yaşı yanaqlarına axıb həzin-həzin ağlamaq səsi eşidiliyordu."

Bu xanımın kim olduğu, nə üçün göz yaşları tökdüyü müəllifi maraqlandırsa da, cəsarət edib bir müddət səbəbini soruşa bilmirdi. Nəhayət, iradəsini toplayıb xanımın hüzuruna gəlib onun kim olduğunu xəbər alır: "Xanım, Sizi and verirəm gözlərinizdən cari olan göz yaşınıza, kim olduğunuzu bəndənizə nişan veriniz. Sizin bu məhzunanə qiyafəniz, bu kədəriniz, mənzərəniz mənim yürəgimdəki dərdlərimi də yadımdan çıxartdı. Allah eşqinə söyləyiniz kimsiniz və niyə ağlayırsınız."

Xanım əvvəlcə kim olduğunu deməkdən yayınsa da, lakin sonra müəllifin israrından yaxasını qurtara bilməyib özünü belə təqdim edir: "Oğlum, mənim adıma Vətən xanım deyərlər. Mən dövlətli bir şəxsin qızı idim. Mənim atamdan böyük əmlaklar, mallar qalmışdı. Ah, mənim övladlarım

fərasətsiz oldular, babalarından qalan mülkləri, malları satdılar. Bunu da əlimdən almaq istəyirlər.” Müəllifin “Vətən xanım” adlandırdığı qadın vətənimiz Azərbaycanın simvoludur. Qadın oğlanlarının fərasətsiz olduqlarından, babalarından qalan mülkləri, malları satdıqlarından, onda olan zinətləri apardıqlarından şikayət edir. O göstərir ki, onu bu günlərə salan oğlanlarıdır. Qadın oğlu Rəşidin əksini göstərərək deyir ki, “oğlum Rəşid çox heybətli idi. Onun zamanında ona əziyyət edən olardımı? Mənə cəsarət ilə baxan olardımı? Xeyir! Xeyir!” Qadının oğlunun adı Rəşid idi ki, mənası igid, qorxmaz, düzgün, doğru deməkdir. Beləliklə, H.İ.Qasımov vaxtilə Azərbaycan oğullarının rəşid olduqlarına işarə edir və müasir dövrdə də onların elə rəşadətli, qorxmaz, igid olmalarını arzu edir.

1911-ci ilin dekabrında müsəlman dünyasında Əlməhərrəm ayı həmişə olduğu kimi geniş şəkildə qeyd olunmuşdur. Bu münasibətlə Əlməhərrəm ayının səkkizinci günündə H.İ.Qasımov haqqında danışdığımız qəzetdə “Məhərrəm əl həram” məqaləsi ilə [7] çıxış edir. Demək olar ki, iki hissədən ibarət olan bu məqalənin birinci hissəsində müəllif Peyğəmbərin nəvəsi həzrət imam Hüseynin Kərbəla səhrasında Yezidin qoşunları ilə qarşı-qarşıya durub, Yezidin biətini mərdliklə qəbul etmədiyini, heç bir şeydən çəkinməyərək haqq-ədalət yolundan dönmədiyini bir daha müasirlərinin yadına saldıqdan sonra əsas mətləbə keçir. Yaşadığı dövrdə islamın nə kimi acınacaqlı hallara düçar olduğu müəllifi narahat etməyə bilməzdi:.. Baxın, bu gün islamiyyət məhv olur. Baxın, bu gün islamiyyət gəmisi naxudasız sahili məlum olmayan bir dəryanın ortasında seyr edir. Həva dumanlı! Gəmi sahibsiz. Yol xərab. İşıq görünməyor. Gəmidə oturanlar məğrur....”

Sonda müəllif belə bir millətin axırını yaxşı nəticə ilə qurtaracağına şübhə ilə yanaşır. Lakin bununla belə H.İ.Qasımov müsəlmanların yenə də əvvəlki kimi inkişaf edəcəyinə əminliyini bildirir.

Hacı İbrahim Qasımov XX əsrin 10-cu illərində milli mətbuatımızın səhifələrində həm də teatr tamaşalarına dair resenziyalarla da şıxış etmişdir. Odur ki, o, “Həqiqəti-əfkar” qəzetinin səhifələrində bir teatr tənqidçisi kimi də iştirak edir.

H.İ.Qasımov bu ənənəsinə sadiq qalaraq cəmisi 9 sayı dərc olunan “Həqiqəti-əfkar” qəzetinin səhifələrində iki teatr tamaşasına resenziyası ilə çıxış edir. Həmin teatr resenziyalarından birisi böyük türk ədibi və dramaturqu Şəmsəddinbəy Saminin qələmə aldığı məşhur “Gaveyi-ahəngər” faciəsinin “Nicat” mədəni-maarif cəmiyyəti tərəfindən 1912-ci il fevralın 17-də göstərilmiş tamaşasına aiddir [8].

Resenziya müəllifi, özünün qeyd etdiyi kimi, “tənqidə girişməzdən əvvəl səhnəmizin nöqsanlarından birini” göstərmək istəyir. Bu da müsəlmanların bir çox işlərdəki kimi, səhnə işlərində də geri qalmalarıdır. O, kişilərin qadın rollarında çıxış etmələrini mənfi hal hesab etmiş və vurğulamışdır ki, “iştə bunlar səhnəmiz üçün böyük zərbə (...) burası təəssüf ediləcək haldır ki, bu nöqsanları dəf etməgə kimsə də bir hərəkət görünməyor.” Daha sonra o, qətiyyətlə qeyd edir ki, ”dəfəatla danışılıb ki, övrət rollarını kişilərə vermək səhnəni yıxır. Tamaşaçıları teatrodan nifrətləndirir. Faciə oyunlarını dəxi məyus edir. Buna bir çarə edilməlidir.”

Yalnız bundan sonra H.İ.Qasımov “Gaveyi-ahəngər” tamaşasının təhlilinə keçir və orada iştirak edən aktyorların oyunlarına münasibətini bildirir.

Resenziya müəllifi Ə.Ağdamskinin tamaşadakı Xohər rolundakı çıxışına mənfi münasibət bildirir. O, Ə.Ağdamskini ümumiyyətlə yaxşı bir aktyor kimi dəyərləndirir, onun opera tamaşalarında “oynayıb cəmaətin alqışına layiq” olduğunu yazsa da, Xohər rolunun ona əsla yaraşmadığını qeyd etmiş və bu rolu başdan ayağa bərbad etdiyini nəzərə çatdırmışdır.

“Gaveyi-ahəngər” tamaşasındakı digər rollarda çıxış edən aktyorların oyunlarına da H.İ.Qasımov münasibətini bildirir. Məsələn, Pərviz rolunda çıxış edən aktyor Şirvanskiyə həmin rolun yaraşdığını bildirərək həm də tövsiyə etmişdir ki. danışanda sözü uzatmasın. Əlvəndinin Qəhtan rolunu mahiranə bir surətdə yaratdığını, Sarabskinin Fərhad rolunu yola verdiyini, Ərəblinskinin Gavə rolunda “noqsansız göründü”yünü, xanım Mixaylovanın Mahru rolunun əvvəllər bu rolda çıxış etmiş Olenskaya xanımdan daha yaxşı oynadığını yazmışdır.

Rəcəbovun Xosrov, Həsənovun Şiruyə, Əlinskinin Yezid, Xəlilovun Fəramərz rollarındakı son dərəcə gözəl oynadıqlarını qeyd etməklə bərabər, H.İ.Qasımov "möhtərəm Cahangir Zeynalovun Qubad rolunda son dərəcə gözəl" oynadığını nəzərə çarpdırırdı.

H.İ.Qasımov tamaşanın rejissor işinə də münasibət bildirir və səhnənin tərtibatını müsbət qiymətləndirir.

H.İ.Qasımovun "Həqiqəti-əfkar" qəzetində dərc etdirdiyi ikinci resenziya 1912-ci il fevralın 22-də H.Z.Tağıyev teatrında "İttihad" məktəbinin kasıb şagirdlərinin xeyrinə olaraq "Məclisi-İraniyan" tərəfindən "Müsəlman dram dəstəsi"nin böyük dövlət və ictimai xadim, yazıçı, dramaturq, publisist Nəriman Nərimanovun "Nadir şah" tarixi faciəsinin tamaşası haqqındadır [9].

Resenziya müəllifi "Əncümən" idarəsinin səyi və hümmətləri nəticəsində biletlərin satılıb qurtardığını və bu səbəbdən də tamaşa salonunun başdan-ayağa dolu olduğunu və həmin gün "daima teatroya nifrət ilə baxanlar" gəldiklərini və "bunlar teatrodan o qədər məmnun olmuşlar idi ki, oyun zəmanı hay-huyla ağlamaqdan özlərini saxlaya bilmiyordular", – deyə yazır

Resenziyada yazılana görə, həmin gün tamaşada sazəndələr dəstəsi ilə yanaşı, "İttihad" məktəbinin şagirdlərindən ibarət musiqi dəstəsi də iştirak edirdi ki, "bunların çalğısından camaat feyziyab olub dəfəatla şagirdləri alqışlayırdılar."

H.İ.Qasımov "Nadir şah" tamaşasının təhlilinə keçməzdən əvvəl həmin gün teatrda hökm sürən hərc-mərcliyə özünün tənqidi münasibətini bildirir: "Əlhasil, yazmaqla bu işlərə çarə olmayacaq. Bunları təbiət becərməlidir, o da kim bilir nə zəman düzələcək."

"Nadir şah" tamaşası dəfələrlə göstərilməsinə baxmayaraq, H.İ.Qasımovun yazdığına görə, başqa tərzdə oynanılmış, onun müsbət cəhətləri ilə yanaşı, tənqiddən xali olmayan yerləri də yox olmadığı göstərilmişdir. Belə ki, resenziya müəllifi "ikinci səhnədə Nadirin gəldiyi zaman qayət müntəzəm bir surətdə quldurların gəlməsini namünasib" hesab edirdi.

Tamaşada iştirak edən aktyorların oyunlarına gəldikdə isə, H.İ.Qasımov ilk növbədə Hüseyn Ərəblinskinin Nadir şah rolunda gözəl oynamasını nəzərə çapdırmaqla yanaşı, danışığında tələsikliyə yol verməsini və bu halın onda bir adət olduğunu xüsusilə vurğulayır; xanım Olenskayanın Gülcahan roluna az vaxt içərisində hazırlamasına baxmayaraq, rolunu "nöqsansız yola verdi"yini, Şərifzadənin Şah Təhmasib rolunda "qadir bir hökmran kimi" oynadığını, Hüseynzadənin Sultan Hüseyn rolunda "əhəmiyyətli olmadığını" çatdırır.

Tamaşadakı Nadirin oğlu Rzaqulu Mirzə rolunda çıxış etmiş aktyor Hüseynovun oyunu haqqında H.İ.Qasımov belə yazır: "Nadirin oğlu Rzaqulu Mirzə rolunu Hüseynov cənabları oynayırdı. Doğrudan da, Hüseynovun bu dərəcədə oynamasını heç kim gözləmədigi kimi mən də gözləmirdim. Xüsusən 4-cü pərdədə Hüseynov Nadirin qarşısında söylədigi nitqinə və hərəkətinə söz ola bilməz."

H.İ.Qasımovun "Nadir şah" tamaşasına yazdığı resenziyadan məlum olur ki, həmin gün XX əsrin əvvəllərində aktyorluğu və şairliyi ilə məşhur olan Səməd Mənsur ilk dəfə olaraq Mirzə Mehdi rolunda çıxış etmiş və üzərinə götürdüyü bu ağır rolu "demək olar ki, layiqli və yaxşı yola verə bildi". Resenziya müəllifi Xəlilbəyovun Fəraş rolunda bəd olmadığını, qalan rollarda çıxış edən Əzizbəyovun Cəfərxanını, Şirinzadənin Məhəmməd rollarında çıxış etdiklərini yazaraq, onların hər üçünün bir tərzdə, bir qaydada oynadıqlarını qeyd edir və onların danışıqlarının ortabab olduqları halda səhnədə özlərini itirdiklərini nəzərə çarpdırır.

Hacı İbrahim Qasımov "Nadir şah" tamaşasına yazdığı resenziyada demək olar ki, bir cümlə ilə də olsa, bütün iştirakçıların oyunlarına münasibətini bildirmişdir.

Göründüyü kimi, Hacı İbrahim Qasımov cəmisi 12 sayı çıxan "Həqiqəti-əfkar" qəzetində fəal iştirak etmiş, onun səhifələrində aktual mövzulu yazılarla və həm də teatr tamaşalarına dair resenziyalarla çıxış etmişdir.

**Nəticə.** H.İ.Qasımovun zəngin publisistik fəaliyyətinin "Həqiqəti-əfkar" qəzeti ilə əlaqəsi ilk dəfə araşdırılır və belə bir nəticəyə gəlinir ki, cəmi 9 sayı işıq üzü görən bu mətbuat orqanının səhifələrində H.İ.Qasımov müxtəlif məsələlərə dair yazılarla çıxış etmişdir.

Məqalə XX əsr Azərbaycan publisistikasının və ümumiyyətlə mətbuat tarixinin və nəzəriyyəsinin yazılmasında müəyyən əhəmiyyətə malik ola bilər. Eyni zamanda ali məktəblərdə, jurnalistika ilə bağlı dərsliklərin yazılmasında da istifadə oluna bilər.

**ƏDƏBİYYAT**


1. Asif Rüstəmli. Tacik mətbuatının azərbaycanlı banisi. "Azərbaycan", 2015, №9.
2. Qulam Məmmədli, Afaq Əliyeva. İmzalar. Bakı, 2015.
3. Rauf Sadıxov. "Fərhad və Şirin" operası ətrafında gedən mübahisələr. Elmi axtarışlar, 1X toplu, Bakı, 2003.
4. "Nəşri-maarif" və kəndçilər". "Həqiqəti-əfkar", 1911, 5 noyabr, № 2.
5. Müharibəyə dair. "Həqiqəti-əfkar", 1911, 12 noyabr, № 3.
6. Zavallı madər. "Həqiqəti-əfkar",1911, 3 dekabr, № 8.
7. Məhərrım Əl həram. "Həqiqəti-əfkar", 1911, 17 dekabr, №10.
8. "Gaveyi-ahəngər". "Həqiqəti-əfkar", 1912, 19 fevral, № 7.
9. "Nadir şah". "Həqiqəti-əfkar", 1912, 25 fevral, № 8.